# Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən "Elektron Təhsil" Respublika müsabiqəsində ekspert qismində iştirak etməyə dəvət

**Vəzifə:** "Elektron Təhsil" Respublika Müsabiqəsində ekspert

**İş yeri:** Bakı şəhəri, Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi.

**Müddəti:** 2 ay

**Vəzifə öhdəlikləri:**

- Müsabiqəyə təqdim olunmuş elektron resursların təsdiq olunmuş meyarlar əsasında qiymətləndirilməsi;
- Tələb olunan müddət ərzində yekun qiymətləndirməni imzalanaraq təhvil verilməsi;
- Yekun nəticələrin elan olunma müddətinə qədər ekspert fəaliyyətinə və qiymətləndirməyə dair informasiyaların məxfi saxlanması.

**Tələblər:**

- Ali təhsil;
- Tədrisdə İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiqi sahəsində təcrübə;
- Rus və ingilis dillərində ünsiyyət (orta səviyyə və daha yüksək);
- Məsuliyyət, diqqət, analitik düşünmə qabiliyyəti.

Müsabiqədə ekspert qismində iştirakla maraqlanan namizədlər öz tərcümeyi-hallarını (CV) Azərbaycan dilində shajizadeh@tsii.edu.az elektron ünvanına göndərə bilərlər. (Müsabiqə ekspertlərinə qonorar ödəniləcəkdir)

**Son müraciət tarixi:** 31 oktyabr 2016-cı il.

Müsabiqə haqqında ətraflı məlumatı veb saytdan əldə edə bilərsiniz: http://musabiqe.edu.az

**Qeyd :** Müsabiqədə münsif və ya ekspert qismində iştirak arzusu müraciətdə bildirilməlidir.